Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

YARIMFİNAL MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

## Yuxarı yaş qrupu

## 10 və 11-ci sinif

# TARİX

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **120 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- 1-7-ci suallar **4**, 8-13-cü suallar **5**, 14-20-ci suallar **6** balla qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Yarımfinal mərhələsinin nəticələrini **11.03.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

## TARİX- YYQ

**1. Roma imperatoru Adrianın fəaliyyətinə aid xüsusiyyəti müəyyən edin.**

A) Parfiyanın paytaxt şəhərinin ələ keçirilməsi
B) Albaniya dövləti ilə əlaqələrin saxlanılması
C) Ermənilər üzərində hakimiyyətin Ariobarzana verilməsi
D) Alan tayfalarının yürüşlərinə qarşı Albaniyaya kömək göstərilməsi
E) Hunların hücumlarına qarşı mübarizə aparılması

**2. Albaniyanın VII əsrin I və II yarısı tarixləri üçün oxşar cəhət:**

A) Ərəb xilafətindən asılılığın qəbul edilməsi
B) Sasanilərin müttəfiqi olaraq döyüşlərdə iştirak etməsi
C) Xəzər xaqanlığının hücumuna məruz qalması
D) Sasani mərzbanları tərəfindən idarə olunması
E) Hökmdarının Bizans imperatorunun vassalına çevrilməsi

**3. Türkmənçay müqaviləsinin Azərbaycan iqtisadiyyatına təsirlərindəndir:**

1. Yerli sahibkarlar yalnız kənd təsərrüfatı məhsulları istehsal edə bilərdilər
2. İqtisadiyyat müstəmləkə iqtisadiyyatı xarakteri aldı
3. Azərbaycan yalnız Rusiya sənayesi üçün məhsul ixrac edən ölkəyə çevrildi
4. Ölkədə kapitalist münasibətlərin inkişafının qarşısı alındı

A) 1, 2
B) 3, 4
C) 2, 3
D) 2, 4
E) 1, 3

**4. XVII əsrin sonlarında Reç Pospolitanın Rusiya ilə yaxınlaşmasına səbəb oldu:**

A) Qara dəniz sahillərinə çıxış əldə etmək istəməsi
B) Ukrayna kazaklarının üsyanlarının genişlənməsi
C) I Pyotrun Osmanlının qərb torpaqlarına yürüşü
D) İsveç kralının Polşa torpaqlarına hücumu
E) Osmanlı dövlətinin Vyananı mühasirəyə alması

**5. Azərbaycan Milli Şurasının ilk fəaliyyət dövrü üçün səciyyəvidir:**

1. Azərbaycanın müstəqilliyinin Antanta dövlətləri tərəfindən tanınması
2. "İstiqlaliyyət Bəyannaməsi" nin qəbul edilməsi
3. Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə qəbul edilməsi
4. İlk Azərbaycan hökumətinin formalaşdırılması

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 2, 4
E) 1, 3

**6. Hadisə-nəticə əlaqəsini müəyyən edin.**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | 10 Noyabrda üçtərəfli bəyanatın imzalanması | Naxçıvan-Qars dəmiryolunun tikilməsinin nəzərdə tutulması |
| B) | Laçın rayonunun işğaldan azad edilməsi | Şuşaya hücum üçün əlverişli şərait yaranması |
| C) | Kəlbəcər rayonunun ermənilər tərəfindən mühasirəyə alınması | Daşaltı əməliyyatının həyata keçirilməsi |
| D) | "Bişkek protokolu"nun imzalanması | Dağlıq Qarabağda Rusiya sülhməramlılarının yerləşdirilməsi |
| E) | Lokal antiterror əməliyyatının həyata keçrilməsi | Qondarma "Qarabağ problemi"nin birdəfəlik həll edilməsi |

**7. Xronoloji ardıcıllığı müəyyən edin.**
1. Azərbaycanın Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olması
2. İlham Əliyevin ilk dəfə Prezident seçilməsi
3. Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvünə çevrilməsi
4. Azərbaycan Respublikasında ilk bələdiyyə seçkilərinin keçirilməsi
A) 3, 2, 1, 4
B) 2, 4, 1, 3
C) 4, 3, 2, 1
D) 1, 4, 3, 2
E) 2, 3, 4, 1

**8. Cənubda və cənub-qərbdə Qarluq və Oğuz yabquluqları, şimal-şərqdə isə Qırğız xaqanlığı ilə həmsərhəd olan dövlət:**
A) Samanilər dövləti
B) Türkeş xaqanlığı
C) Qarakitay dövləti
D) Uyğur xaqanlığı
E) Kimak xaqanlığı

**9. Xəritə-sxemdə 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq Azərbaycana qaytarılan rayonların ərazisini müəyyən edin.**




A) 1, 2, 7
B) 4, 5, 6
C) 1, 4, 5
D) 3, 4, 5
E) 2, 6, 7

**10. Cənubi Azərbaycanda 1920-ci ildə başlanan milli hərəkatdan *fərqli* olaraq, 1905-1911-ci illərdəki hərəkat:**
1. Xarici dövlətlərin hərbi və siyasi yardımı ilə yatırıldı
2. Muxtar dövlətin yaradılması uğrunda mübarizə idi
3. Azərbaycanın şimalındakı milli burjuaziyadan hərtərəfli yardım almışdı
4. İranda konstitusiyanın qəbulu uğrunda mübarizə idi
A) 1, 4
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**11. Parfiya dövlətinin mövcudluğu dövründə baş vermişdir:**
A) Makedoniyalı İsgəndərin Mərkəzi Asiyaya hücumu
B) Əhəməni dövlətinin Misiri ələ keçirməsi
C) M.Trayanın Kilikiya və Ərəbistanı ələ keçirməsi
D) Afina-Sparta müharibəsinin baş verməsi
E) Şərqi Avropada İskit padşahlığının meydana gəlməsi

**12. XVIII əsrin sonlarında Avstriyanı Fransa ilə sülh imzalamağa məcbur etdi:**
A) Şimali İtaliyada Napoleon tərəfindən məğlub edilməsi
B) İngiltərənin Koalisiya müharibələrinə dəstək verməməsi
C) Osmanlı ilə yeni müharibənin başlanması
D) Austerlis döyüşündə məğlub olması
E) Fransanın Misirdən geri çəkilməsi

**13. Səfəvi dövləti ilə bağlı Eyler-Venn diaqramını tamamlayın.**




a. Marağa rəsədxanasının bərpa etdirilməsi
b. Hökmdarların dövrlərinə aid tarixi əsərlərin yazılması
c. Şah Sultan Hüseynin musiqini qadağan edən fərman verməsi
d. Avropadan mətbəə avadanlığı gətirilməsinə təşəbbüs göstərilməsi
e. Şeyx Səfi məscidi üçün xüsusi xalça toxunması

A) 1-a; 2-b,c; 3-d,e
B) 1-a,c; 2-d,e; 3-b
C) 1-d,e; 2-a; 3-b,c
D) 1-a,e; 2-c,d; 3-b
E) 1-b; 2-c,d; 3-a,e

**14. Qaraqoyunlu dövlətində Qara Yusifin hakimiyyəti dövründən fərqli olaraq:**

| 1. Qara İsgəndərin hakimiyyəti dövründə | 2. Cahanşahın hakimiyyəti dövründə |
|---|---|
| a. Teymuri hökmdarı Şahruxla müharibə aparılmışdı<br>b. Alaşkert döyüşü baş vermişdi<br>c. Çoxlu soyurqal torpaqlar paylanmışdı | a. Teymurilər dövlətindən asılılıq qəbul edilmişdi<br>b. İdarəçilikdə yarımköçmə əyanların mövqeyi güclənmişdi<br>c. Şahzadələrin mərkəzi hakimiyyətə qarşı qiyamı baş vermişdi |

A) 1-b; 2-b
B) 1-a, b; 2-a, c
C) 1-c; 2- a, b
D) 1-a, c; 2-c
E) 1-b; 2- a, c

**15. "Mazut konstitusiyası" və "Müsavat" partiyasının I Qurultayında qəbul edilmiş yeni proqramının müddəalarında oxşar cəhət:**

A) Fəhlələr üçün iş günü normasının müəyyən olunması
B) Torpaqların əvəzsiz olaraq kəndlilərin xüsusi mülkiyyətinə verilməsi
C) Muxtar əyalətlərdə yerli əhalinin ana dilinin rəsmi dil olması
D) Rusiyanın demokratik respublika prinsipi əsasında qurulması
E) Cənubi Azərbaycandan olan işçilərlə yerli fəhlələrin arasında bərabərsizliyin aradan qaldırılması

**16. Alban hökmdarı Cavanşirin Dəməşqə ikinci səfəri zamanı xəlifə ona təklif etmişdi:**

A) Albaniyanın ödədiyi vergilərin üçdə biri qədər yüngülləşdirilməsini
B) Albaniyanın paytaxtının Bərdə şəhərinə köçürülməsini
C) Xəlifənin vəziri olmasını
D) Konstantinopoldan gəlmiş əsilzadələrlə sülh danışığı aparmağı
E) İslamı qəbul edərək xəlifə qoşunlarının komandanı olmasını

**17. Xəritədə göstərilmiş xanlıqlara aid ümumi cəhətlərin düzgün verildiyi bəndi müəyyən edin.**




| | Xanlıqlar | Ümumi cəhətlər |
|---|---|---|
| I | 1, 4 | Urmiya və Qaradağ xanlıqlarına qarşı birgə mübarizə aparılması |
| II | 2, 4, 6 | Quba xanlığı tərəfindən tabe edilməsi |
| III | 3, 5 | Gülüstan müqaviləsindən sonra varlığını qoruyub saxlaması |
| IV | 2, 6 | Şəki xanlığına qarşı qurulan ittifaqda iştirak etməsi |

A) yalnız III
B) II, IV
C) yalnız I
D) II, III
E) I, III

**18. Qeyd edilənlərdən neçəsi II Dünya müharibəsi illərində Azərbaycan SSR iqtisadiyyatına aid deyil:**

- Sənayenin əsasını əl əməyinin üstünlük təşkil etdiyi xırda sənətkar emalatxanaları təşkil edirdi
- 1942-ci ilin əvvəlindən başlayaraq cəbhənin sifarişlərini yerinə yetirən təyyarə təmiri zavodu tikilmişdi
- Azərbaycan neft sənayesi 110 mln. ton neft hasil etmişdi
- Demokratik dəyərləri təbliğ edən qəzet və jurnallar nəşr olunmağa başlanmışdı
- Şəhər və kəndlərdə pulsuz məktəblər açılmağa başlanmışdı
- Bakıda 130 növ silah, sursat və başqa hərbi ləvazimat istehsal edilirdi
- Bakı müttəfiqlərin hərbi təyinatlı sursatlarının daşınması üçün mühüm quru və su nəqliyyat yolu idi

A) 2
B) 3
C) 4
D) 5
E) 6

**19. Qeyd edilənlər aiddir:**

- Dağlı Respublikasının qurucularından biri olmuşdur
- AXC hökumətində nazir olmuşdur

A) Həbib bəy Səlimov
B) Süleyman bəy Sulkeviç
C) Fətəli xan Xoyski
D) Məhəmməd Həsən Hacınski
E) Rəşid bəy Kaplanov

**20. Uyğunluğu müəyyən edin:**

1. Muizzuiddin Aybəy
2. Seyfəddin Kutuz
3. Baybars

a. Suriyanın bir hissəsi, Misir və Hicazı monqolların hücumundan xilas etmişdi
b. Hakimiyyəti dövründə Xilafətin paytaxtı Misirə köçürülmüşdü
c. Misirdə Əyyubi sülaləsinin hakimiyyətinə son qoymuşdu

A) 1c, 2a, 3b
B) 1b, 2a, 3c
C) 1a, 2c, 3b
D) 1c, 2b, 3a
E) 1b, 2c, 3a